2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına 829446 min manat həcmində investisiyadan istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,6 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,8 faiz artaraq 759629,9 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 91,6 faizini təşkil edir.

2017-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada tikinti sahəsində 12977 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 3,6 faiz artaraq 474,7 manat olmuşdur.